

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 131 (21.032)

11 iyul 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının energetika naziri Maykl Fallonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir Maykl Fallon Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Maykl Fallon ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji və qeyri-enerji sektorunda inkişaf etdirilməsinə böyük önəm verdiyini vurğuladı.

Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji və qeyri-enerji sektorunda əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Son altı ayda qeyri-enerji sektorunda iqtisadiyyatın dinamik şəkildə artdığını bildirən Prezident İlham Əliyev bunu ölkə iqtisadiyyatının şaxələndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə bp arasında 20 illik uğurlu əməkdaşlığa toxunan dövlətimizin başçısı enerji, infrastruktur, inşaat və digər birgə layihələrin həyata keçirilməsində Böyük Britaniya şirkətlərinin bundan sonra da yaxından iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev Baş nazir Devid Kemeronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Gürcüstanın ölkəmizdəki səfirliyində olmuşdur. Dövlətimizin başçısı Gürcüstanın keçmiş Prezidenti Eduard Şevardnadzenin vəfatı ilə əlaqədar başsağlığı vermiş, matəm kitabına ürək sözlərini yazmışdır.

# 14 iyul – Azərbaycanın həyatında dönüş günü

***14 iyul 1969-cu ildə Azərbaycan tarixində çox mühüm dəyişikliklərlə nəticələnən böyük siyasi-tarixi hadisə baş verdi: Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Azərbaycan KP MK-nın birinci katibi seçildi. Bu zaman Azərbaycan özünün çox çətin günlərini yaşayırdı. Belə bir vəziyyətdə Azərbaycanda siyasi hakimiyyətə gələn dahi rəhbər Heydər Əliyev bu vaxta qədər dövlət təhlükəsizlik orqanlarında yüksək vəzifələr tutmuş, 1956-1964-cü illərdə respublika Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi (DTK) Əks-Kəşfiyyat İdarəsinin rəisi, 1964-1967-ci illərdə DTK sədrinin müavini, 1967-ci ildən isə komitənin sədri vəzifələrində çalışmışdı.***

Xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən az sonra, 1969-cu ilin avqustunda keçirilən ilk plenum respublikanın həyatında dönüş mərhələsi olmuşdur. Plenumda geniş məruzə ilə çıxış edən dahi rəhbər Heydər Əliyev nitqində ölkədə yaranmış vəziyyəti tutarlı faktlarla dərindən təhlil etmiş, Azərbaycan kimi böyük resurslara və imkanlara malik ölkənin böhranlı vəziyyətdən çıxarılması üçün tədbirlər planı qəbul olunmuş, sosial-iqtisadi sahədə qarşıda duran əsas vəzifələr, onları qısa müddətdə həll etmək üçün istiqamətlər müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyev məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmağın, dövlət və əmək intizamını möhkəmləndirməyin, kadrların məsuliyyətini artırmağın yeni xəttini müəyyənləşdirmişdir. Bu xətt müdrik rəhbər Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında, xüsusilə 1969-cu ilin dekabr, 1970-ci ilin mart və avqust plenumlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyillərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin, ictimai ovqatın bərqərar olunması uğrunda uzunmüddətli mübariz fəaliyyət proqramına çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə əldə olunan uğurlar haqqında çoxlu tədqiqatlar aparılmış, monoqrafiya, kitab və məqalələr yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Bu nəhəng işlər, əldə olunan uğurlar haqqında diqqəti bəzi məqamlara yönəltmək istərdik. 1970-1982-ci illər ərzində ölkədə 250 yeni müəssisə, istehsalat sahələri istifadəyə verilmişdir. Neft emalı müəssisələri yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları tikilmişdir. Nəticədə, maşınqayırma məhsullarının istehsalı 5 dəfədən çox artmışdır. Respublikada sənaye istehsalı 2,7 dəfə çoxalmış, on üç il ərzində 101,5 milyard rubl dəyərində məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki 50 ildəki qədərdir. Bu zaman xalq istehlakı malları istehsalı 3 dəfə, əmək məhsuldarlığı 2 dəfədən çox artmış, fond artımı 25 faiz çoxalmışdır. Kənd təsərrüfatının ümumi məhsulu 2,6 dəfə, əmək məhsuldarlığı isə 2,2 dəfə artmışdır. 1985-ci ildə 1970-ci illə müqayisədə taxıl istehsalı 1,8 dəfə, pambıq, tərəvəz, meyvə istehsalı 2 dəfədən, üzüm 5 dəfədən çox artmışdır. Kapital qoyuluşu artımının bir rubluna 3,5 rubluq əlavə məhsul alınmışdır. Üzüm plantasiyaları qısa müddət ərzində 150 min hektardan çox genişləndirilmişdir. Üzüm istehsalı 1970-ci ildəki 350 min tondan 1980-ci ildə 1 milyon 800 tona çatmışdır. Pambıq istehsalı 1 milyon ton həddini aşmışdır. Üç milyon ton üzüm yığılması hədəf götürülmüşdür. Faraş tərəvəz və maldarlıq məhsullarının istehsalı maksimum həddə çatdırılmışdır. Əhalinin maddi rifah halı, yaşayış səviyyəsi xeyli yaxşılaşdırılmış, yaşayış məskənlərinin görkəmi tamamilə dəyişilmişdir. 22 milyon kvadratmetr, yəni əvvəlki 50 ildəkinin 60 faizindən çox yaşayış evi tikilməklə 2 milyondan çox vətəndaşın mənzil şəraiti yaxşılaşdırılmışdır.

Azərbaycanda 1058 ümumtəhsil müəssisələri binaları, Azərbaycan Dövlət Universiteti (indiki BDU), Neft-Kimya, Xarici Dillər, Pedaqoji, Bədən Tərbiyəsi və sair institutlar üçün yeni tədris korpusları, yardımçı binalar, hovuzlar, idman zalları və sair inşa edilmiş, tədrisə köməkçi tədbirlər həyata keçirilmişdir. SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilən tələbələrin sayı 40-50 nəfərdən 1000 nəfərə çatdırılmışdır. 20 minə yaxın yüksək ixtisaslı kadr hazırlanmışdır. Azərbaycan o vaxtlar hər il keçirilən sosializm yarışlarının 12 dəfə qalibi olmuşdur. Azərbaycan 1970-ci ildə bir sıra mükafatlara layiq görülmüş, İkinci Dünya müharibəsində alman faşizmi üzərində qələbənin təmin olunmasında roluna görə, Bakı şəhəri 1978-ci ildə SSRİ-nin ən yüksək mükafatı ilə təltif edilmişdir.

Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə milli-mənəvi dəyərlərin bərpası, qorunub saxlanması, inkişafı və təbliği sahəsində də mühüm işlər həyata keçirilmişdir. Bir sıra görkəmli şəxsiyyətlərin, o cümlədən Nizami Gəncəvinin, Əcəmi Naxçıvaninin, Nəsirəddin Tusinin, Aşıq Alının, Aşıq Ələsgərin, Üzeyir Hacıbəylinin və başqalarının yubileyləri qeyd olunmuşdur. Ümummilli liderimizin Azərbaycanda rəhbərliyə gəlişinədək adının belə çəkilməsi qadağan olunan Hüseyn Cavidin cənazəsi Uzaq Sibirdən gətirilərək doğma Vətəndə – Naxçıvanda torpağa tapşırılmışdır.

Sovetlər dönəmində məqsədli şəkildə arxa plana keçirilmiş, dəyişdirilmiş bir sıra toponimlər – yer adları çox ustalıqla bu və ya digər dərəcədə bərpa olunmuşdur. Gəncədə (o zamakı Kirovabadda) Yeni Gəncə rayonu yaradılmış, Bakıda rayonlara Nizami, Nəsimi kimi adlar verilmiş, Naxçıvan Muxtar Respublikasında Babək, Dağlıq Qarabağda Əsgəran rayonları təşkil edilmişdir. Azərbaycanın mədəniyyət ocaqlarından olan Şuşa şəhəri haqqında qərarlar qəbul edilmiş, orada M.P.Vaqifin xatirəsinə türbə ucaldılmış, Ü.Hacıbəylinin və Bülbülün ev-muzeyləri açılmış, qədim abidələrin bərpası sahəsində xeyli işlər görülmüşdür.

Bakıda “Sovetskaya türkologiya” jurnalı nəşr olunmağa başlamışdır. Türk xalqlarının daha çox yaşadığı geniş əraziyə malik Sibirdə və Orta Asiyada deyil, Azərbaycanda belə bir jurnalın nəşrə başlaması ulu öndərin ən böyük xidmətlərindən biri və ciddi səylərinin nəticəsidir. 1934, 1938, 1959 və 1965-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması haqqında cəhdlər olsa da, müxtəlif səbəblərdən bu, mümkün olmamışdı. Bu məsələyə böyük önəm verən ulu öndərin ölkəmizə birinci rəhbərliyi dövründə 10 cildlik Azərbaycan Sovet Ensiklopediyası nəşr edilmişdir. Respublika rəhbəri bu fundamental nəşrin 10 cilddə, həm də nəzərdə tutulan 50.000 əvəzinə 80.000 tirajla çap olunmasına nail olmuşdur.

Azərbaycan dilinin təmizliyinə və qorunub saxlanmasına böyük önəm verən, 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin kollektivi ilə görüşündə Azərbaycan dilində çıxış edən ulu öndər Heydər Əliyevin çox ciddi səyləri nəticəsində Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdur. Moskvanın çox ciddi müqavimətinə baxmayaraq, qəbul olunan bu qərar Azərbaycan dilinin yad təsirlərdən qorunub saxlanılması və gələcək inkişafı üçün böyük zəmin yaratmışdır.

Hər bir Azərbaycan vətəndaşının keçmiş irsimizə, tarix və mədəniyyətimizə yaxından bələd olmasını istəyən ulu öndərin Azərbaycanda ilk hakimiyyəti illərində orta, ixtisas və ali məktəblərdə Azərbaycan tarixinin tədrisinə ayrılan saatların miqdarı artırılmışdır. “Azərbaycan tarixi” çoxcildliyinin hazırlanması haqqında qərar qəbul edilmişdir.

Azərbaycan incəsənəti yüksək zirvəyə qalxmış, bir sıra görkəmli müğənnilərin, musiqi kollektivlərinin tez-tez xarici ölkələrə səfər edərək Azərbaycan incəsənətini yüksək səviyyədə təmsil və təbliğinə şərait yaradılmış, görkəmli elm və mədəniyyət xadimləri “Sosialist Əməyi Qəhrəmanı” kimi yüksək adlara, orden və medallara layiq görülmüşlər.

Göründüyü kimi, müdrik rəhbər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan SSR-də siyasi hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş vermişdir. Sovet totalitar rejiminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla doğma Vətəninin çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdir. Hələ o zaman Azərbaycanın müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdir. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahələrində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdur. Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Bütün bunları nəzərə alaraq tədqiqatçılar ümummilli lider Heydər Əliyevi ən mürəkkəb, ziddiyyətli tarixi proseslərin gərdişindən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə təmkinini itirməyən, qibtəolunacaq iradə nümayiş etdirən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin maraqlarına praqmatikcəsinə və dəqiqliklə yönəltməyi bacaran, Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə böyük strateq kimi dövlət müstəqilliyinə zəmin yaradan siyasi, iqtisadi və hüquqi sahədə mühüm addımlar atan və bu istiqamətdə ciddi nailiyyətlər əldə edən təkrarsız lider kimi dəyərləndirirlər.

Ümummilli liderimizin hakimiyyətə gəlişinədək Azərbaycana qarşı ərazi iddialarını ən yüksək səviyyələrə çatdıran və bu sahədə müəyyən “uğurlar” qazanan ermənilər 1969-1986-cı illərdə bu istəklərini büruzə verə bilmədilər. Çünki müsahibələrinin birində vurğuladığı kimi, ulu öndər birinci katib seçiləndən ay yarım sonra, 1969-cu ilin sentyabrında Ermənistan KP MK-nın birinci katibi A.Koçinyanın arzusu ilə onunla Qazax rayonu ilə İcevan rayonunun sərhədində görüşmüş, ona təklif etmişdi ki, erməni millətçilərini Azərbaycana qarşı ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün. Bu isə öz nəticəsini vermiş, narahatçılıq doğuran hadisələr baş verməmişdi. Ulu öndər sonralar deyirdi ki, ***“1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 3-nə kimi Azərbaycan KP MK-nın birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib”.*** Burada bir cəhəti xüsusi vurğulamaq lazım gəlir ki, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründə nəinki ermənilərə torpaq verilməmiş, hətta məlum 14 iyul plenumundan bir az əvvəl Azərbaycanın, təxminən, iki min hektar torpağının Ermənistana verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu ilin may ayında qəbul etdiyi qərarın icrası ulu öndər tərəfindən dayandırılmış və həmin torpaqların Ermənistana verilməsinin qarşısı alınmışdı.

***“Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır”,*** *– deyən ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətinin birinci dövründəki fəaliyyətinə bu qısa baxışdan sonra onun 1969-1982-ci illərdə həyata keçirdiyi tədbirləri, əldə olunan uğurları öz sözləri ilə dəyərləndirmək istərdik:* ***“Mən uzun ömür yaşamışam, 13 il respublika partiya təşkilatına rəhbərlik etmişəm, xalqımın mənəvi təmizliyi uğrunda mübarizə aparmışam. Ola bilsin ki, bu mübarizədə mən özümə xeyli düşmən qazanmışam, çünki, ilk növbədə, natəmiz adamlarla vuruşmuşam. Mən xalqım qarşısında təmizəm! Bu da mənim ən böyük sərvətimdir”.***

**Fəxrəddin SƏFƏRLİ**
**AMEA-nın müxbir üzvü**

## Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 45-ci ildönümünə həsr olunmuş elmi-praktik konfrans

***İyulun 10-da Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatının təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 45-ci ildönümünə həsr olunmuş “Milli istiqlalın və intibahın başlandığı gün” mövzusunda elmi-praktik konfrans keçirilmişdir.***

Konfransı giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli “Ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü” mövzusunda məruzə ilə çıxış etmişdir.

Bildirilmişdir ki, 1969-1982-ci illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana birinci rəhbərlik dövrü respublikanın sosial-iqtisadi böhrandan sürətlə intibah mərhələsinə keçid dövrü kimi xarakterizə olunur. Müstəqillik illərində ölkənin siyasi olimpindəki onillik – 1993-2003-cü illərdəki fəaliyyət mərhələsi isə müasir dünyanın siyasi xəritəsində müstəqil Azərbaycan Respublikasının mövqelərinin möhkəmləndirilməsi dövrü olmuşdur. Hər iki mərhələdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına da ölkəmizin ümumi inkişaf potensialından böyük pay düşmüş, onun bir sıra tarixi-siyasi və tarixi-coğrafi amillərlə bağlı olan muxtariyyət statusu daha da möhkəmləndirilmişdir.



Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin professoru, Əməkdar elm xadimi Hüseyn Həşimli “Ümummilli lider Heydər Əliyev və milli ideya”, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev “Ulu öndər Heydər Əliyev və Azərbaycanın istiqlal məfkurəsi” mövzularında məruzələrlə çıxışlar etmişlər.

Qeyd edilmişdir ki, 1969-cu il iyulun 14-dən sonra tariximizin unudulmuş səhifələrinin üzə çıxarılması, onları əks etdirən elmi və bədii əsərlərin yazılması, filmlərin çəkilməsi, bütün sahələr üzrə milli kadrların hazırlanması ilə bağlı böyük işlər görülmüş, milli ruhlu ziyalıların fəaliyyəti üçün müvafiq şərait yaradılmışdır. Bütün bunlar gələcəkdə qurulacaq olan müstəqil Azərbaycan Respublikasının ideoloji dayaqlarının formalaşmasına xidmət edirdi.

Elmi-praktik konfransın sonunda iştirakçılar ümummilli lider Heydər Əliyevin həyat və dövlətçilik fəaliyyətindən bəhs edən filmə baxmışlar.

## 2014-cü ilin ilk 6 ayının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində keçirilən kollegiya iclasında 2014-cü ilin birinci yarımili ərzində görülmüş işlərlə bağlı nazir Rövşən Məmmədov məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 iyul 2011-ci il tarixli Fərmanının icrası cari ilin birinci yarımilində də davam etdirilmiş, “Elektron hökumət” portalı üzərindən real vaxt rejimində rabitə, genişzolaqlı internet xidmət haqları, elektrik enerjisi və qaz haqlarının ödənilməsi təşkil edilmiş, istifadəçilərin portalda onlayn qeydiyyatdan keçməsi avtomatlaşdırılmış və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür.

Bundan əlavə, muxtar respublikada “Elektron imza”nın tətbiqinə başlanılmış, bunun üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında elektron imzanın sertifikat mərkəzi yaradılmış, mərkəz lazımi texniki avadanlıqlarla təmin edilmişdir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası ilə əlaqədar distant tədrisin təşkili məqsədilə Çin Xalq Respublikasının “Huawei” şirkətinin təqdim etdiyi 25 şagird yerlik distant təhsil sistemi Naxçıvana gətirilmiş, yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

“2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın müvafiq bəndinin icrasının təmin edilməsi məqsədilə əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların işaxtaranlara çatdırılması üçün ***isaxtar.nmr.az,*** adlı internet saytı yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Tədbirlər Planı”na uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilmiş 200 ədəd buklet, 5 min ədəd poçt markası və 20 min ədəd zərf hazırlanaraq tədavülə buraxılmış, Tədbirlər Planında nəzərdə tutulan ***www.90il.nmr.az*** adlı internet saytı hazırlanmışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının telekommunikasiya şəbəkəsinin 3-cü nəsil telefon sisteminə keçirilməsi ilə bağlı 5 mərhələdən ibarət layihənin Babək və Şahbuz rayonlarını əhatə edən üçüncü mərhələsinin icrası üçün yeni nəsil telekommunikasiya avadanlığının montaj və quraşdırma işləri başa çatdırılmış, cari ilin fevral ayının 11-də Şahbuz şəhərində Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilmişdir. Şahbuz və Babək rayonlarını əhatə edən Yeni Nəsil Telekommunikasiya Sistemi 13 min 952 abunəçi tutumlu 38 ədəd üçüncü nəsil telefon stansiyalarından ibarətdir.

“Naxtel” simsiz telefon şəbəkəsinin əhatəsinin genişləndirilməsi məqsədilə 5 yeni baza stansiyası istifadəyə verilmiş, Naxçıvan şəhərində EV-DO texnologiyası əsasında genişzolaqlı simsiz internet xidməti təşkil edilmişdir”, – deyən nazir əlavə etmişdir ki, “Naxtel” üzərindən qısa mesaj (SMS) xidmətinin göstərilməsi üçün avadanlıqlar qurulmuş, digər mobil operatorlarla SMS mübadiləsi təmin edilmişdir. Bundan əlavə, “Naxtel”in Toplu SMS xidməti mərkəzi də yaradılmışdır.

Ötən ilin mart ayından etibarən başlayan və ümumi uzunluğu 240 kilometr olan Ordubad-Sədərək alternativ fiber-optik kabel magistral xəttinin tikintisində son tamamlama işləri görülür.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Culfa Rayon İcra Hakimiyyətində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrə və 2014-cü ilin birinci yarısının yekunlarına həsr olunmuş müşavirə keçirilmişdir.***

Tədbiri giriş sözü ilə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açmışdır.

Sonra Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyev çıxış edərək cari ilin birinci yarısında Culfa rayonunda həyata keçirilmiş tədbirlərdən və əldə olunmuş nailiyyətlərdən danışmışdır.

Qeyd edilmişdir ki, 2014-cü ilin ilk 6 ayı ərzində rayonda 2 milyon 982 min 500 manatlıq, yaxud 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 6 faiz çox sənaye məhsulu istehsal olunmuşdur. Ötən dövr ərzində tikinti-quruculuq işləri də uğurla davam etdirilmiş, bütün maliyyə mənbələrindən əsas kapitala 14 milyon 7 min 200 manat və ya 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox investisiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 1,5 faiz artaraq 12 milyon 428 min 100 manat təşkil etmişdir.

Bildirilmişdir ki, 2014-cü ilin ilk 6 ayında iqtisadiyyatın vacib sahəsi olan kənd təsərrüfatının ümumi məhsulu 13 milyon 254 min 700 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 13,9 faiz çoxdur.

Yerlərdə kiçikhəcmli layihələrin, o cümlədən bağçılıq, istixana, arıçılıq, heyvandarlıq və fərdi quşçuluq təsərrüfatlarının yaradılmasından da danışan Nazim İmaməliyev qeyd etmişdir ki, bu məqsədlə 13 layihə üzrə sahibkarlara 274 min manat həcmində kreditlər verilmiş, bunun da müqabilində Culfa şəhərində, Gülüstan, Xanəgah, Şurud, Yaycı, Saltaq və Dizə kəndlərində müxtəlif növ meyvə bağları salınmışdır.

Müşavirəyə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vurmuşdur.

* * *

***2014-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində keçirilən iclası idarənin rəisi Fazil İbrahimov açaraq məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, bəhs olunan dövrdə idarəyə dövlət təşkilatlarından 1 telefonoqram, 1 sərəncam və 39 məktub daxil olmuşdur.

İdarənin 2014-cü il üçün təsdiq olunmuş iş planına əsasən, Naxçıvan Muxtar Respublikasının 2013-cü il dövlət büdcəsinin icrası haqqında illik hesabata rəy hazırlanmışdır.

Bildirilmişdir ki, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin 2014-cü ilin birinci yarısında təsdiq olunmuş iş planına uyğun olaraq, Naxçıvan Muxtar Respublikasında büdcənin xərclərinə maliyyə-büdcə nəzarəti tədbirləri çərçivəsində idarə tərəfindən idarə və təşkilatlar üzrə təhlil işləri və audit yoxlamaları aparılmışdır.

Vurğulanmışdır ki, idarə tərəfindən 4 təşkilat üzrə aparılan analitik təhlillə maliyyə hesabatlarının düzgün doldurulub-doldurulmadığı ilə bağlı aparılan audit tədbirləri nəticəsində 1 təşkilatda 1 nəfərin əmək haqqından 185,02 manat az gəlir vergisi tutulduğu, 1 təşkilatda isə 1 nəfərə 78 manat ezamiyyə xərcinin artıq ödənildiyi müəyyən olunmuşdur. Aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub və maliyyə orqanlarına məlumat göndərilmişdir.

Görülmüş tədbirlər nəticəsində artıq ödənilmiş 78 manat ezamiyyə xərci və az tutulmuş 185,02 manat gəlir vergisi büdcəyə bərpa edilmişdir.

Sonda məruzə ətrafında idarənin Büdcə-maliyyə nəzarəti sektorunun müdiri Şəkül Seyidovun, Ümumi, maliyyə və təsərrüfat sektorunun müdiri Rövşən Məmmədovun çıxışları olmuşdur.

***İyulun 10-da Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 2014-cü ilin birinci yarımilinin yekunları ilə bağlı kollegiya iclası keçirilmişdir.***



Kollegiya iclasında Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, muxtar respublikada nəqliyyat-yol infrastrukturuna göstərilən dövlət qayğısı bu kompleksə daxil olan qurumların fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasına imkan vermişdir.

Qeyd olunmuşdur ki, hesabat dövrü ərzində “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanunu, habelə nəqliyyata aid digər qanunvericilik aktları haqqında əhalinin, həmçinin daşımalarla məşğul olan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi üçün söhbətlər aparılmış, rübdə bir dəfə Naxçıvan Şəhər Nəqliyyat İdarəsində muxtar respublikada sərnişin daşınmasını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə təşkil olunmuşdur.

İran İslam Respublikasının ərazisindən keçməklə Bakı-Naxçıvan və Naxçıvan-Bakı marşrutunda sərnişinlərə xidmətin səviyyəsinin yüksəldilməsi üçün 2 ədəd “Mersedes-Benz-Traveqo” markalı avtobuslar alınıb gətirilmiş və 2014-cü ilin yanvar ayından sərnişinlərin istifadəsinə verilmişdir.

Vurğulanmışdır ki, cari ilin ilk 6 ayı ərzində sərnişinlərin rahatlığını təmin etmək məqsədilə yeni marşrutların açılması diqqət mərkəzində saxlanılmış, Cəhri- Naxçıvan, Qahab-Naxçıvan, Culfa-Naxçıvan, Ərəfsə-Naxçıvan marşrutlarında avtobusların sayı artırılmışdır. Bəhs edilən dövrdə 187 nəfər fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 291 nəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir. Bu müddət ərzində vergiyə cəlb olunmuş 6 min 676 avtonəqliyyat vasitəsinə fərqlənmə nişanı verilmişdir. Fərqlənmə nişanı verilmiş avtonəqliyyat vasitələri tərəfindən dövlət büdcəsinə 111 min 741 manat vergi ödənilmişdir.

“Sərnişin və yükdaşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə nazirliyin Nəqliyyat müfəttişliyi və Təhlükəsizlik şöbəsinin işçiləri reyd komissiyası ilə birlikdə müxtəlif istiqamətlərdə reydlər keçirmişlər”, – deyən nazir bildirmişdir ki, reyd zamanı qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən 399 avtonəqliyyat vasitəsi aşkar olunmuşdur. Onun sözlərinə görə, bu avtonəqliyyat vasitələrinin sahibləri ilə aparılmış profilaktik söhbətlər nəticəsində yükdaşıma və sərnişindaşıma fəaliyyətinə icazə verilməsinə görə 187 nəfər lisenziyaya cəlb edilmiş, intizama tabe olmayan 212 nəfər haqqında isə cəza tədbiri görülmək üçün müvafiq orqanlara məlumat göndərilmişdir.

Qeyd olunmuşdur ki, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti üzrə 2014-cü ilin ilk 6 ayı ərzində 985 vaqon – 56 min 727 ton yük daşınmışdır. Yükdaşımadan 65 min 881,08 manat vəsait toplanmışdır. Dəmir yolunda daşınan sərnişin sayı isə 68 min 152 nəfər olmuşdur ki, bundan 13 min 168,20 manat gəlir əldə edilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyətindən də bəhs edən nazir vurğulamışdır ki, hesabat dövründə Naxçıvan Beynəlxalq Hava Limanı işçiləri üçün yeni inzibati bina istifadəyə verilmişdir. Bu dövrdə yerli hava xətti ilə 119 min 208 sərnişin, 1 milyon 532 min 408 kq baqaj, 359 min 180 kq yük və 112 min 782 kq poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə 4 min 816 sərnişin, 56 min 800 kq baqaj daşınmışdır.

“Naxavtoyol” Dövlət Şirkətinin də işi birinci yarım il üçün uğurlu olmuşdur. Hesabat dövründə şirkətin xidmət etdiyi 1473 km respublika və yerli əhəmiyyətli avtomobil yollarında istismar, təmir-tikinti və yenidənqurma işləri həyata keçirilmiş, yolların saxlanması və istismarına 479,9 min manat vəsait xərclənmişdir.

Sonra məruzə ətrafında Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli, “Naxavtoyol” Dövlət Şirkətinin baş direktoru Bəhruz Əsgərov, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor müavini Musa Əliyev çıxış etmişlər.

Tədbirə Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Elm və ali təhsil işçiləri yarımilə yekun vurublar



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrə və cari ilin birinci yarımilində AMEA Naxçıvan Bölməsində görülən işlərə dair tədbir keçirilmişdir.***

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bölmənin 2014-cü ilin birinci yarısındakı elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat məruzəsi ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 2014-cü ilin birinci yarısında AMEA Naxçıvan Bölməsində Naxçıvanın tarixinin, mədəniyyətinin, ədəbiyyatının, təbii sərvətlərinin öyrənilməsi, qrant layihələrinin icrası, beynəlxalq və respublika səviyyəli elmi, elmi-texniki konfrans və seminarların keçirilməsi, eyni zamanda kadr potensialının artırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi yönündə elmi və elmi-təşkilati işlərin uğurlu həllinə çalışılmışdır.

İlin birinci yarısında AMEA Naxçıvan Bölməsi tərkibində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrində AMEA Rəyasət Heyəti tərəfindən 2014-cü il üçün təsdiq edilmiş plana uyğun olaraq, 6 elmi istiqamətdə 6 problemi əhatə edən 7 mövzuya daxil olan 32 işin 92 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Hazırda tədqiqatlar 21 şöbə və 8 laboratoriyada 2 nəfər akademik, 6 nəfər müxbir üzv, 4 nəfər elmlər doktoru, 52 nəfər fəlsəfə doktoru, 9 nəfər doktorant, 3 nəfər dissertant, 13 nəfər elmi işçi olmaqla, 89 elmi və köməkçi heyət tərəfindən yerinə yetirilir. Elmi işçilərdən 3 nəfərin iş yerini dəyişməsi ilə əlaqədar planda nəzərdə tutulan 3 mərhələ üzrə tədqiqatların icrası dayandırılmışdır.

Vurğulanmışdır ki, 2014-cü ilin birinci yarısında AMEA Naxçıvan Bölməsi əməkdaşlarının 9 monoqrafiya, 1 kitab, 268 məqalə və konfrans materialı, 3 tezisi olmaqla, 281 elmi əsəri nəşr edilmişdir. Əsərlərdən 1 monoqrafiya, 92 məqalə və konfrans materialı xaricdə çapdan çıxmışdır. Birinci yarımildə bölmədə humanitar və ictimai, təbiət və texniki elmlər seriyalarından ibarət olan “Xəbərlər” jurnalının 2 nömrəsi çapdan çıxmışdır ki, bu nömrələrdə bölmə əməkdaşlarının 57 məqaləsi işıq üzü görmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan tarixi” çoxcildliyinin hazırlanması və nəşr olunması barədə” Sərəncamına əsasən, 2014-cü ilin birinci yarısında çoxcildliyin ikinci cildi nəşrə hazırlanmış, hazırda üçüncü cildin materialları üzərində iş aparılır.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2013-cü ildə qrant layihələri müsabiqəsində qalib olmuş AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin rəhbərliyi ilə “I Kültəpə və onun ətrafında araşdırmalar”, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayevin rəhbərliyi ilə “Naxçıvan folklorunun toplanması, tədqiqi və nəşri” və Mirhəsən Tahirovun “Batabat Astrofizika Rəsədxanasının fotometrik cihazlarla təmini” qrant layihələri çərçivəsində elmi-tədqiqat işləri 2014-cü ilin birinci yarısında uğurla davam etdirilmiş və hesabatlar müvafiq quruma təqdim edilmişdir.

Bu dövrdə AMEA Naxçıvan Bölməsi ilə Polşa Elmlər Akademiyasının Krakov Bölməsi arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin üzvlərindən akademik Tariyel Talıbov, AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli və Əbülfəz Quliyev çıxış edərək ilin birinci yarısında görülən işləri müsbət qiymətləndirmiş, növbəti yarımildə görüləcək işlər haqqında təkliflərini səsləndirmişlər.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

**Elnur KƏLBİZADƏ**

***Naxçıvan Dövlət Universitetində dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə həsr olunmuş yığıncaq keçirilmişdir. Yığıncaqda universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov məruzə ilə çıxış etmişdir.***



Qeyd olunmuşdur ki, 2013-2014-cü tədris ilinin ikinci yarısında da Naxçıvan Dövlət Universitetində elektron universitet quruculuğu, elm və təhsilin müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə dinamik inkişaf etdirilməsi, elektron təhsil şəbəkəsinin yaradılması, beynəlxalq əlaqələrin, virtual əməkdaşlığın genişlənməsi istiqamətində mühüm addımlar atılmışdır. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə (KOICA) birgə reallaşdırılan “Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsinin tətbiqi məqsədilə görüşlər və müzakirələr keçirilmiş, universitetdən bir qrup nümayəndə Cənubi Koreyanın paytaxtı Seul şəhərində layihə ilə bağlı təlim keçmişdir.

Yığıncaqda Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Mehdi Bağırov, Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi kafedrasının müdiri, aqrar elmlər doktoru, professor Ələvsət Quliyev, Rabitə və informasiya texnologiyaları kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru Həsən Həsənov, magistratura üzrə dekan, biologiya elmləri doktoru Etibar Məmmədov çıxışlar etmişlər. Çıxışlarda bildirilmişdir ki, Naxçıvan Dövlət Universitetinin kollektivi dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaqdır.

**Mehriban SULTAN**

# Yubiley tədbirləri milli dövlətçilik təfəkkürünün, ərazi bütövlüyü düşüncəsinin daha da dərinləşməsinə və möhkəmlənməsinə xidmət edir

***Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda tanınmış yerli və xarici alimlərin iştirakı ilə “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda Beynəlxalq Konfransın keçirilməsi Azərbaycanın elmi həyatında mühüm hadisədir. Belə yüksək səviyyəli beynəlxalq elmi konfransların keçirilməsi həm muxtar respublika rəhbərinin elmin inkişafına göstərdiyi diqqətin nəticəsidir, həm də qədim diyarda formalaşan ciddi elmi potensialla əlaqədardır. Bəs konfrans elmimizə hansı töhfələri verdi? Hansı mühüm nəticələr əldə olundu? Və bu kimi digər suallarla Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevə müraciət etdik:***



***– İsmayıl müəllim, Naxçıvanda keçirilən “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda Beynəlxalq Konfrans Naxçıvan tarixşünaslığına, ümumilikdə, ölkə tarixşünaslığına nə kimi töhfələr verdi?***

– “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda keçirilən Beynəlxalq Konfrans Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmişdi. Bildiyiniz kimi, bu il muxtar respublikanın yaradılmasından 90 il ötür. Bununla əlaqədar ölkə Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvarın 14-də Sərəncam imzalamışdır. Sərəncamda deyilir: “Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır”.

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bunu nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü ili muxtar respublikada “Muxtariyyət” ili elan etmiş və Tədbirlər Planını təsdiq etmişdir. Tədbirlər Planında 2014-cü ildə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Qeyd etdiyimiz beynəlxalq konfransın keçirilməsi də həmin Tədbirlər Planında nəzərdə tutulan tədbirlərdən biri idi.

Naxçıvanlıların muxtariyyət uğrunda mübarizəsi, muxtariyyət statusunun əldə edilməsi və muxtar respublikanın təşkili Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında mühüm hadisədir və bu diyarın inkişaf tarixində mühüm bir mərhələ təşkil edir.

Beynəlxalq konfransın həm plenar iclasında, həm də 5 bölmədə dinlənilən 70-ə yaxın elmi məruzə və çıxışlar, əsasən, muxtariyyət ərəfəsində və dövründə Naxçıvanın ictimai-siyasi vəziyyətinə, muxtariyyət uğrunda aparılan mübarizənin müxtəlif istiqamətlərinə, muxtariyyət illərində iqtisadiyyatın, elmin, təhsilin, mədəniyyətin inkişafına həsr edilmişdi. Məruzə və çıxışlar konfransın materiallarında çap ediləcək və elmi ictimaiyyət bununla tanış olacaqdır. Həmin topluda çap olunan məqalələr, düşünürəm ki, ölkə tarixşünaslığına layiqli töhfə olacaqdır.

***– Beynəlxalq konfransda hansı nəticələr əldə olundu və bunlardan hansını daha uğurlu hesab etmək olar?***

– Hər bir beynəlxalq konfransda dinlənilən məruzələr konfransın ümumi istiqamətinə yönəlir və müəyyən nəticələrin əldə edilməsinə xidmət edir. Haqqında bəhs olunan beynəlxalq konfransda Naxçıvanın muxtariyyət statusu qazanmasından bəhs edilmişdir. Əsas istiqamət bunlar olsa da, çoxsaylı məruzələr həmin istiqamətin araşdırılmasına, izahına və müəyyən nəticələrin əldə edilməsinə xidmət etmişdir. Beynəlxalq konfransın materialları toplu halında çap edilərsə mühüm və əhəmiyyətli nəticələr orada dolğunluğu ilə əksini tapacaqdır.

***– “Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” adlı Beynəlxalq Konfransın plenar iclasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında Naxçıvan Muxtar Respublikasında elmin inkişaf etdirilməsi üzrə birgə əməkdaşlığa dair saziş imzalandı. Bu əməkdaşlıq sazişi Naxçıvan elminə nə qazandıracaq?***

– Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında, digər sahələr kimi, elm və təhsil də böyük inkişaf yolu keçməkdədir. Bu sahələr ölkəmizdə hər zaman prioritet istiqamətlər hesab edilir. Ümummilli lider Heydər Əliyevin xüsusi Sərəncamı ilə yaradılan AMEA-nın Naxçıvan Bölməsi muxtar respublikada elmin inkişafına, elmi mühitin canlanmasına stimul olmuşdur. Naxçıvanın elm adamları, ziyalıları gündəlik fəaliyyətlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısını hər gün hiss edirlər. Bağlanmış saziş muxtar respublikada elmin inkişafı, yüksək ixtisaslı elmi kadrların hazırlanması, elmi müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, akademiya strukturuna daxil olan elmi-tədqiqat müəssisələri ilə Naxçıvan Muxtar Respublikasındakı elm və ali təhsil müəssisələri arasında əməkdaşlığın və əlaqələrin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Sazişdə bir sıra məsələlər üzrə qarşılıqlı birgə əməkdaşlıq nəzərdə tutulur: birgə tədqiqatların aparılması, təcrübə mübadiləsi, dövlət proqramlarında naxçıvanlı alimlərin iştirakı, müştərək tədbirlərin keçirilməsi, konkret problemlər üzrə birgə tədqiqat proqramlarının hazırlanması və həyata keçirilməsi, yüksək ixtisaslı elmi kadrların hazırlanmasında məqsədli doktorantura yerlərindən istifadə edilməsi, müxtəlif elmi-texniki əməkdaşlıq formalarının seçilməsi, aparılan elmi-tədqiqat işlərinin nəticələrinin beynəlxalq səviyyədə tanıdılmasına və onların impakt faktorlu jurnallarda nəşr olunmasına nail olunması, muxtar respublikada fəaliyyət göstərən elm və ali təhsil müəssisələrinin əməkdaşlarının beynəlxalq miqyaslı tədbirlərə cəlb edilməsi, arxeoloji tədqiqatların genişləndirilməsi, abidələrin dünyada tanıdılması, arxeoloji-etnoqrafik xarakterli muzeylərin, həmçinin açıq səma altında muzeylərin yaradılması, AMEA-nın Mərkəzi Kitabxanasında və İnformasiya Resursları Mərkəzində Naxçıvan Bölməsi üçün xüsusi kitab fondunun və oxu zalının yaradılması və sair.

Elmi istiqamətlər çox genişdir, əhatəlidir və yuxarıda sadalananların həyata keçirilməsi Naxçıvanda elmin istiqamət və əhatəliliyini daha genişləndirəcək, qədim diyarda elmin inkişafına yeni uğurlar qazandıracaqdır.

***– Gələcəkdə də belə mötəbər elmi tədbirlərin keçirilməsi gözlənilirmi?***

– Əlbəttə. Naxçıvanda AMEA-nın bölməsi və ali təhsil müəssisələri fəaliyyət göstərirsə, deməli, belə tədbirlər də keçirilməlidir. Bu xarakterli beynəlxalq simpozium və konfranslar, konkret olaraq, müəyyən problemə həsr olunur. Məlumdur ki, bunların hamısı Naxçıvanın müxtəlif dövr tarixinin daha geniş və obyektiv araşdırılmasına yönəldilir. Üstəlik, beynəlxalq tədbirlərdə müxtəlif ölkələrin elm adamlarının iştirakı və məruzələrlə çıxış etmələri həmin məsələyə yeni yanaşmaların, müxtəlif fikirlərin səslənməsi ilə nəticələnir ki, son nəticədə, düzgün və dolğun fikirlər ortaya çıxır.

Naxçıvanın qədim və orta əsrlər dövrü tarixi, beş minillik ilkin şəhər mədəniyyətinin yaranması və formalaşması, yeni və müasir dövr tarixi üzrə yeri gəldikcə bu cür beynəlxalq tədbirlər keçiriləcəkdir.

***– Bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə, o cümlədən elmin inkişafı istiqamətində mühüm nailiyyətlər qazanılmışdır. İstərdim, bu haqda fikirlərinizi bildirəsiniz.***

– Ölkəmiz dinamik və sürətlə inkişaf edir, həyatın bütün sahələrində çox ciddi dəyişikliklər baş verir. Bu sözləri muxtar respublikamız haqqında da demək olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məqsədyönlü, prinsipial və qətiyyətli fəaliyyəti bütün uğurlarımızın əsasıdır. Elə bir sahə yoxdur ki, orada ciddi və əsaslı dəyişikliklər olmasın, uğur qazanılmasın.

Elmin inkişafı istiqamətində də ciddi dəyişikliklər baş verir, uğurlar əldə edilir. Bu, ilk növbədə, elmə dövlət dəstəyinin olması, elmi mühit üçün əlverişli şəraitin yaradılması, maddi-texniki imkanların artırılması, yüksək ixtisaslı elmi kadrların hazırlanması ilə bağlıdır. Son on ildə AMEA Naxçıvan Bölməsində işləyən elmi işçilər üçün hər cür şərait yaradılıb. Bu, eyni ilə ali təhsil müəssisələri üçün də xarakterikdir. Elmi işçilər isə yaradılmış şəraitdən düzgün yararlanmağa çalışırlar. Çoxsaylı ensiklopediyalar, xəritələr, kitab və monoqrafiyalar, elmi məqalələr nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, AMEA Naxçıvan Bölməsinin Tusi, Naxçıvan Dövlət Universitetinin “Qeyrət”, Naxçıvan Müəllimlər İnstitutunun “Müəllim” nəşriyyatları da çoxsaylı elmi məqalələrin yer aldığı elmi jurnalların çapına şərait yaradır.

Elmi işçilər qrant layihələrində fəal iştirak edirlər. Bölmə əməkdaşları həm beynəlxalq, həm də Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondunun 8 qrant layihəsinin qalibi olublar. Elmi işçilərimizdən 10-a qədəri müxtəlif patentlər və müəlliflik şəhadətnamələri almışlar. Çox yaxşı haldır ki, bunlar arasında gənc tədqiqatçılar da vardır.

Hər il 30-35 əməkdaşımız beynəlxalq səviyyəli simpozium və konfranslarda iştirak və məruzə edirlər.

AMEA-nın Naxçıvan Bölməsində bir sıra fundamental və ümumiləşdirici əsərlər hazırlanmışdır. 2003-2013-cü illərdə 9 əməkdaşımız elmlər doktoru, 55 əməkdaşımız isə fəlsəfə doktoru dissertasiyaları müdafiə etmiş, professor və dosent elmi adlarını almışlar. Bu günlərdə AMEA-nın üzvlüyünə keçirilən seçkilərdə Naxçıvan Bölməsi üzrə 1 nəfər akademik, 5 nəfər isə müxbir üzv seçilmişdir. Bölməmizdə 3 ixtisas üzrə Müdafiə Şurası fəaliyyət göstərir. 2014-cü ildə Elmi kitabxanamız Elektron kitabxanaya çevrilmişdir. Bir sözlə, elm sahəsində kifayət qədər nailiyyətlərimiz var. Lakin bunlar bizi arxayın salmır. Elm bitib-tükənməyən bir ümmandır. Ona görə də gördüyümüz işləri hər zaman başlanğıc hesab etmişik.

***– Müsahibə üçün sağ olun.***

**Sara ƏZİMOVA**

# Taxıl biçini davam edir



Muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaqla təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına müsbət təsir göstərmiş, ötən dövr ərzində daxili bazarın yerli məhsullara olan tələbatının ödənilməsində mühüm rol oynamışdır. Bu sırada taxılçılıqda qazanılan uğurları xüsusi qeyd etmək və uğurların qazanılmasında həyata keçirilən bir sıra tədbirləri də vurğulamaq lazımdır.

27 min ton taxılı uzun müddətə, 20 min ton taxılı qısa müddətə saxlamağa imkan verən taxıl ehtiyatı anbarlarının istifadəyə verilməsi muxtar respublikada taxıl ehtiyatının yaradılmasında əsas rol oynamaqla istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları problemlərin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir.

Kənd təsərrüfatı üzrə ümumi inkişafı sürətləndirən mühüm amillərdən biri də müasir texnikalardan istifadə olunmasıdır. Bu vacib məsələ diqqətdə saxlanılmış, taxıl biçinini optimal müddətdə başa çatdırmaq üçün mövcud kombaynlara baxış keçirilmiş, həmin texnikalar işlək vəziyyətə gətirilmiş, ehtiyat hissələri tədarük olunmuşdur. Hazırda sahələrdə 75 kombayndan istifadə edilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, muxtar respublikada həyata keçirilmiş tədbirlər nəticəsində 2014-cü ilin məhsulu üçün 60829 hektar sahədə əkin aparılmışdır. Bu da bir il öncəki müvafiq göstəricidən 702 hektar çoxdur. Ümumi əkin sahəsinin 35749,7 hektarını və ya 58,8 faizini taxıl əkini təşkil etmişdir. Bir il öncəyə nisbətdə taxıl əkini sahələrinin həcmi 425,7 hektar artmışdır. Taxıl zəmilərinin 26274,1 hektarında buğda, 9475,6 hektarında isə arpa əkilmişdir.

Taxıl əkilmiş sahələrin 10364,8 hektarı və ya 29 faizi Babək rayonunun, 9184,1 hektarı və ya 25,7 faizi Şərur rayonunun, 5085,6 hektarı və ya 14,2 faizi Culfa rayonunun, 4277 hektarı və ya 12 faizi Kəngərli rayonunun, 2147,9 hektarı və ya 6 faizi Ordubad rayonunun, 2130,2 hektarı və ya 6 faizi Sədərək rayonunun, 1331 hektarı və ya 3,7 faizi Şahbuz rayonunun, 1229,1 hektarı və ya 3,4 faizi Naxçıvan şəhərinin payına düşmüşdür.

Hazırda muxtar respublikada taxıl yığımı davam edir. 7 iyul 2014-cü il tarixə 18538 hektar sahədə taxıl biçini aparılmışdır ki, bu da ümumi taxıl əkini sahəsinin 51,9 faizini təşkil edir.

### Taxıl biçini haqqında məlumat, hektar

| | Ümumi əkin sahəsi | o cümlədən | | Biçilən sahə | o cümlədən | | Biçilən sahənin ümumi əkin sahəsinə nisbəti, faizlə |
|---|---|---|---|---|---|---|---|
| | | buğda | arpa | | buğda | arpa | |
| Naxçıvan şəhəri | 1229,1 | 1024,6 | 204,5 | 470,0 | 315,0 | 155,0 | 38,2 |
| Şərur rayonu | 9184,1 | 7313,8 | 1870,3 | 5163,0 | 3375,0 | 1788,0 | 56,2 |
| Babək rayonu | 10364,8 | 7777,8 | 2587,0 | 5110,0 | 3015,0 | 2095,0 | 49,3 |
| Ordubad rayonu | 2147,9 | 1307,7 | 840,2 | 1800,0 | 990,0 | 810,0 | 83,8 |
| Culfa rayonu | 5085,6 | 4046,2 | 1039,4 | 3565,0 | 2585,0 | 980,0 | 70,1 |
| Kəngərli rayonu | 4277,0 | 2647,2 | 1629,8 | 1490,0 | - | 1490,0 | 34,8 |
| Şahbuz rayonu | 1331,0 | 1010,3 | 320,7 | - | - | - | - |
| Sədərək rayonu | 2130,2 | 1146,5 | 983,7 | 940,0 | 80,0 | 860,0 | 44,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi** | **35749,7** | **26274,1** | **9475,6** | **18538,0** | **10360,0** | **8178,0** | **51,9** |

Taxılın məhsuldarlıq göstəricisi muxtar respublikanın şəhər və rayonları üzrə bir hektardan orta hesabla 19-30 sentner intervalında müşahidə olunmaqdadır.

Göründüyü kimi, nəticələr ürəkaçandır. Bu da o deməkdir ki, torpaq mülkiyyətçilərinin, sahibkarların ötən il payızdan çəkdikləri zəhmət hədər getməmiş, sahələrdə bol məhsul yetişdirilmişdir. Taxıl yığımı sürətlə davam etdirilir.

# 2014-cü ilin 6 ayı ərzində dövlət satınalmaları sahəsində fəaliyyət şəffaflıq şəraitində keçmişdir

***2014-cü ilin 6 ayı ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satın alınması zamanı qanunvericiliyin tələblərinin gözlənilməsi istiqamətində bir sıra tədbirlər görülmüş, işdə şəffaflıq prinsipi qorunmuş, müsabiqələrin qanunvericiliyə uyğun olaraq ədalətli rəqabət şəraitində keçirilməsinə nəzarət gücləndirilmişdir.***

Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunması Ümumi Daxili Məhsulun həcminin də artmasına səbəb olmuşdur. Həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir ki, özəl sektorun Ümumi Daxili Məhsuldakı payı ildən-ilə artır. Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğı dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iddiaçılar arasında yerli məhsul istehsalçılarının daha fəal iştirakını təmin etmişdir. Belə ki, satın alınan ərzaq, bərk və yumşaq inventarların və sair məhsulların böyük hissəsi yerli istehsal hesabına ödənilir, aparılan tikinti, təmir-bərpa işlərinin əksər hissəsi yerli şirkətlər tərəfindən icra olunur.

2014-cü ilin 6 ayı ərzində muxtar respublikada keçirilmiş 98 satınalma müsabiqəsi nəticəsində 1 milyon 378 min 765 manat dövlət vəsaitinə qənaət olunmuşdur.

# Gənclər hərbi xidmətə yola salınır

İyulun 9-da Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib. "Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2014-cü il tarixli Sərəncamına əsasən, hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə idarənin rəis müavini, polkovnik-leytenant Zahid Əliyev açıb.

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Şəhər Təşkilatının sədri Zahid Cəfərov və müharibə veteranı Sultan İsmayılov çıxış edərək bildiriblər ki, hərbi xidmət keçmək, Vətəni qorumaq hər bir azərbaycanlı gəncin vətəndaşlıq borcudur. Sevindirici haldır ki, bu günün gəncləri müstəqil Azərbaycanımızın Silahlı Qüvvələrində qürurla xidmət edirlər. Milli ordumuzun yarandığı ilk dövrlərdən fərqli olaraq, indi hərbi hissələrimizdə xidmət üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin orduya böyük diqqət və qayğısının nəticəsidir ki, indi Silahlı Qüvvələrimiz müasir maddi-texniki baza ilə təmin olunub, şəxsi heyətin psixoloji hazırlığı yüksək səviyyədə təşkil edilib. Buna görə də hər il gənclərimiz böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yollanırlar. Unutmaq olmaz ki, qarşıda Azərbaycan əsgərini böyük sınaqlar gözləyir. Bu baxımdan hər bir əsgər hərbi xidmətdə özünü hərtərəfli hazırlamalı, texniki bilikləri dərindən yiyələnməlidir. Çünki Vətənimizin işğal altında olan torpaqlarını azad etmək Azərbaycan əsgərinin əzmi, qətiyyəti və düşmənə layiqli cavabı sayəsində mümkün olacaq.

Övladını hərbi xidmətə yola salan valideyn Elşən İsmayılov bu günün qəlbində qürur hissi oyatdığını dilə gətirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Turqay Orucov torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqlarına, verilən əmrləri vaxtında və layiqincə yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov və Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Elxan Əliyev çıxış edərək xalq-ordu birliyinin sarsılmaz vəhdətindən danışıb, hərbi xidmətə yola salınan bütün çağırışçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, həmin gün Babək rayonunda da çağırışçıların hərbi xidmətə yola salınması mərasimi keçirilib.

**Xəbərlər şöbəsi**

# Argentinalı qonaqlar universitetdə

***Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Karlos Dante Riva və La Plata Milli Dövlət Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun departament koordinatoru, professor Paulo Botta Naxçıvan Dövlət Universitetində olmuşlar.***



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonaqları salamlayaraq Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin və təhsilin inkişafına göstərilən dövlət qayğısından bəhs etmiş, Naxçıvan Dövlət Universitetinin strukturu, professor-müəllim heyəti, tələbə kontingenti barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, dünya təhsilinə inteqrasiya yolu tutan, 50 ilə yaxın tarixi inkişaf yolu keçən universitetin beynəlxalq əlaqələri genişlənməkdədir. Dünyanın tanınmış 80 ali məktəbi ilə beynəlxalq əməkdaşlığa malik olan bu ali məktəb bir çox beynəlxalq layihədə də uğurla təmsil olunur. Universitetdə beynəlxalq münasibətlərin, müxtəlif xarici dillərin tədrisinə, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə böyük əhəmiyyət verilir.

Səfir Karlos Dante Riva Azərbaycan-Argentina arasında diplomatik əlaqələrin qurulmasının 20 ildən artıq tarixə malik olduğunu, Argentinanın 9 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olduğunu vurğulamış, iki ölkə arasında əlaqələrin inkişafından danışmışdır. Argentinalı diplomat ilk dəfə 2013-cü ilin noyabr ayında Naxçıvan Muxtar Respublikasına səfər etdiyini xatırladaraq ötən dövr ərzində regionun nəzərəçarpacaq dərəcədə inkişaf etdiyini bildirmişdir. Qeyd olunmuşdur ki, ölkələrarası münasibətlərin inkişafında elm, təhsil sahəsində tərəfdaşlığın, mədəni əlaqələrin özünəməxsus rolu var və səfirlik Argentina universitetlərinin Azərbaycanın təkcə paytaxtında deyil, müxtəlif regionlarında fəaliyyət göstərən ali məktəblərlə, xüsusilə də Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığının inkişafına hərtərəfli köməklik göstərəcək.

Professor Paulo Botta La Plata Milli Dövlət Universiteti və onun nəzdindəki Beynəlxalq Münasibətlər İnstitutunun fəaliyyəti haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, iki il öncə institutda yaradılmış Azərbaycanşünaslıq kafedrası sayəsində argentinalı tələbələr Azərbaycanın tarixi, coğrafiyası, iqtisadiyyatı və milli mədəniyyəti haqqında geniş məlumatlar əldə edirlər. Kafedra tərəfindən görkəmli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi münasibətilə hazırlanmış "Heydər Əliyev və müasir Azərbaycanın qurulması" adlı kitab və müstəqil Azərbaycanın son 10 illik inkişaf yolunu əks etdirən digər bir yeni nəşr ispandilli ölkələrdə Azərbaycanın təbliğinə xidmət edir.

Universitetlərarası əməkdaşlığın inkişafı, birgə layihələrin təşkili, tələbə-müəllim mübadiləsi, virtual əlaqələrin genişləndirilməsi haqqında fikir mübadiləsi aparılmış, əməkdaşlıq müqaviləsinin imzalanması haqqında təkliflər dəyərləndirilmişdir.

Sonra tələbələrlə görüş keçirilmiş, professor Paulo Botta "Argentinanın beynəlxalq münasibətlərinin tarixi keçmişi və bu günü" mövzusunda məruzə ilə çıxış etmiş, Argentina ilə Azərbaycan arasında iqtisadi, siyasi, mədəni əlaqələrdən, diplomatik münasibətlərindən danışmışdır. Beynəlxalq münasibətlər üzrə argentinalı tədqiqatçı tələbələrin suallarını cavablandıraraq Azərbaycanın siyasi və iqtisadi qüdrətinin, beynəlxalq nüfuzunun artmaqda olduğunu, Argentinanın ölkəmizin dövlət müstəqilliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşdığını, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmişdir.

Səfir Karlos Dante Riva və Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın perspektivlərindən danışmışlar.

Qonaqlar universitet kampusunu gəzərək tədris və elmi-tədqiqat yönlü laboratoriya və muzeylərdə, Memarlıq və mühəndislik fakültəsindəki Memarlıq və incəsənət tarixi kabinəsində, sərgi salonunda olmuşlar.

**M.SULTAN**

# Yaylaqlarda profilaktik tibbi müayinələrə start verildi

Cari mövsümü Şahbuz və Ordubad yaylaqlarında keçirən heyvandarlara, onların ailələrinə xidmətin təşkili diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi bu məqsədlə xüsusi həkim briqadaları yaratmış, həmin briqadaların mövsüm ərzində daim yaylaqlarda olması, burada müvəqqəti yaşayan əhalinin sağlamlığının qorunmasına xidmət etməsi üçün tədbirlər planı hazırlamışdır.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasının həkim briqadası Qanlıgöl ərazisindəki yaylaqlarda məskunlaşan maldar və heyvandarları profilaktik tibbi müayinələrdən keçirmişdir.

Fermer Elbəyi Elyazov həkim briqadasının fəaliyyətini harada yaşamasından asılı olmayaraq, əhalinin sağlamlığına dövlət səviyyəsində göstərilən qayğının əyani ifadəsi kimi dəyərləndirmiş, heyvandarlar və onların ailələri adından həkimlərə minnətdarlığını bildirmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhəri, Həsən Rəhmanov küçəsi, döngə 3, ev 5-də yaşamış Orucəliyev Təvəkkül Nəzərəli oğlunun adına olan 611 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyinin direktoru Məmmədrza Ələsgərov və birliyin kollektivi Elman Məmmədova, anası

**PÜRÜZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 597